**Gömrük tarifi haqqında**

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

*Fəsil 4*
**Gömrük rüsumları üzrə güzəştlər**

Maddə 19. **Tarif güzəştləri və preferensiyaları**

19.1. Tarif güzəştləri və preferensiyaları gömrük sərhədindən keçirilən mallar üzrə gömrük rüsumundan azadetmə və gömrük rüsumu dərəcələrinin aşağı salınması, malın preferensial şərtlərlə gətirilməsi üçün tarif kvotaları şəklində verilən güzəştlərdir.

19.2. Mallar üzrə tarif güzəştlərinin verilməsi halları və qaydaları Gömrük Məcəlləsinə, bu Qanuna və müvafiq icra hakimiyyəti orqanının normativ hüquqi aktlarına uyğun olaraq tənzimlənir.

19.3. İstehsal ehtiyaclarını yerli xammal, material və əsas vəsaitlər hesabına ödəmək mümkün olmadıqda, müvafiq icra hakimiyyəti orqanı konkret sahənin inkişafını təmin etmək məqsədi ilə həmin malların idxalına konkret dövr (bu Qanunun 20.0.17-ci və 20.0.19-cu maddələrində nəzərdə tutulmuş hallar istisna olmaqla) üçün nəzərdə tutulan tarif güzəştləri tətbiq edə bilər.

19.4. Mallar üzrə tarif preferensiyaları qanunvericilikdə və Azərbaycan Respublikasının xarici ölkələrlə və ya beynəlxalq təşkilatlarla bağladığı beynəlxalq müqavilələrdə nəzərdə tutulduğu hallarda həmin ölkələrə, yaxud beynəlxalq təşkilatın üzv ölkələrinə münasibətdə qarşılıqlı və ya birtərəfli qaydada tətbiq edilir.

19.5. Mallar üzrə tarif güzəştləri və preferensiyaları bu Qanunun 20-ci maddəsində nəzərdə tutulmuş hallar istisna olmaqla, fərdi xarakter daşıya bilməz.

19.6. Malların preferensial və qeyri-preferensial mənşəyinin müəyyən edilməsi qaydalarını müvafiq icra hakimiyyəti orqanı müəyyən edir.

19.7. Gömrük rüsumları üzrə güzəştlərin və azadolmaların dövlət büdcəsinin gəlirlərinə təsirinin qiymətləndirilməsinin aparılması məqsədilə gömrük rüsumları üzrə güzəştlər və azadolmalar müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilmiş qaydada təsnifləşdirilir.

Maddə 20. **Gömrük rüsumlarından azad etmə**

20.0. Aşağıdakılar gömrük rüsumlarından azad edilirlər:

20.0.1. yüklərin, baqajın və sərnişinlərin beynəlxalq daşımalarını həyata keçirən nəqliyyat vasitələri, habelə onların yolboyu, dayanacaqlararası məntəqələrdə normal istismarı üçün zəruri olan və ya həmin nəqliyyat vasitələrinin qəzasının (sınmasının) nəticələrini aradan qaldırmaq məqsədi ilə xaricdən alınmış maddi-texniki təchizat və tədarük malları, yanacaq, qida məhsulları, dərman vasitələri və digər əmlak;

20.0.2. dənizdə balıq və digər su bioresurslarının ovunu həyata *keçirən* Azərbaycan Respublikası gəmilərinin və Azərbaycan Respublikasının hüquqi və fiziki şəxsləri tərəfindən icarəyə (fraxta) götürülmüş gəmilərin fəaliyyətini təmin etmək üçün gömrük ərazisindən çıxarılan maddi-texniki təchizat və tədarük malları, yanacaq, *qida məhsulları*, dərman vasitələri və digər əmlak, habelə həmin gəmilərdə gömrük ərazisinə gətirilən vətəgəçilik məhsulları;

20.0.3. xarici dövlətlərin nümayəndəlikləri və onların əməkdaşları, habelə digər qeyri-rezidentlər üçün Gömrük Məcəlləsində müəyyən edilmiş gömrük güzəştləri çərçivəsində gömrük sərhədindən keçirilən mallar;

20.0.4. gömrük ərazisindən çıxarılan və bu əraziyə gətirilən Azərbaycan Respublikasının milli valyutası, xarici valyuta və qiymətli kağızlar;

20.0.4-1. qanunvericiliklə nəzərdə tutulmuş vəzifələrinin yerinə yetirilməsi ilə bağlı Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən malların idxalı;

20.0.5. qanunla müəyyən edilmiş hallarda dövlətin mülkiyyətinə keçirilməli olan mallar;

20.0.6. yardım yükü kimi gətirilən, təbii fəlakət zonalarında zərərçəkmiş əhaliyə yardım göstərilməsi üçün göndərilən qida məhsulları, mallar və nəqliyyat vasitələri, habelə müvafiq orqanların təbii fəlakətin nəticələrinin ləğvi ilə məşğul olan şəxsi heyəti üçün nəzərdə tutulmuş avadanlıq, xüsusi nəqliyyat vasitələri, ehtiyat hissələri, şəxsi əşyalar və digər mallar, habelə məktəblər, məktəbəqədər təhsil müəssisələri və müalicə ocaqları üçün pulsuz dərs vəsaitləri;

20.0.7. texniki yardım da daxil olmaqla, təmənnasız yardım və xeyriyyəçilik məqsədi ilə dövlətlərin və ya beynəlxalq təşkilatların xətti ilə gömrük ərazisinə gətirilən və ya bu ərazidən aparılan mallar, habelə qrant haqqında müqaviləyə və ya qərara əsasən qrant kimi alınan pul və (və ya) digər maddi yardımlar;

20.0.8. üçüncü ölkələr üçün nəzərdə tutulan və gömrük ərazisindən gömrük nəzarəti ilə tranzit xüsusi gömrük proseduru altında keçən mallar;

20.0.9. müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada fiziki şəxslər tərəfindən gömrük sərhədindən keçirilən istehsal, yaxud kommersiya məqsədləri üçün nəzərdə tutulmayan mallar;

20.0.10. gömrük ərazisinə qaytarılan milli mədəniyyət sərvətləri;

20.0.11. yığma idman komandaların hazırlığı ilə bağlı müvafiq icra hakimiyyəti orqanı tərəfindən ölkəyə gətirilən idman avadanlığı və malları;

20.0.12. əcnəbi əməkçi miqrant Azərbaycan Respublikasında, Azərbaycan Respublikasının vətəndaşı olan əməkçi miqrant xarici ölkədə əmək fəaliyyətinə başlamaq və əmək fəaliyyətini başa vurduqdan sonra qayıtmaq üçün gömrük sərhədini keçərkən onun şəxsi əşyaları, məişət avadanlıqları, əmək fəaliyyəti üçün zəruri olan alətlər;

20.0.13. mallar (aksizli mallar istisna olmaqla) gömrük ərazisi xaricindən xüsusi iqtisadi zonaya idxal edildikdə, habelə gömrük ərazisi xaricindən xüsusi iqtisadi zonaya idxal olunmuş mallar xüsusi iqtisadi zonadan gömrük ərazisi xaricinə ixrac edildikdə;

20.0.14. xüsusi iqtisadi zonada istehsal və ya emal olunmuş mallar gömrük ərazisi xaricinə ixrac edildikdə, xüsusi iqtisadi zonada istehsal və ya emal olunmuş mallar təmir, yekun-tamamlama işləri, nümunələrin sərgisi və digər bu kimi məqsədlərlə gömrük ərazisinə müvəqqəti idxal edildikdə;

20.0.15. gömrük ərazisində mallar xüsusi iqtisadi zonalar arasında idxal və ixrac edildikdə;

20.0.16. Gömrük Məcəlləsi ilə müəyyən edilmiş müvafiq gömrük prosedurlarına əsasən gömrük rüsumundan azad və ya qismən azad olunmuş mallar;

20.0.17. müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada investisiya təşviqi sənədini almış hüquqi şəxslər və fərdi sahibkarlar tərəfindən müvafiq icra hakimiyyəti orqanının təsdiqedici sənədi əsasında texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı — investisiya təşviqi sənədinin alındığı tarixdən 7 il müddətinə;

20.0.18. müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) yaratdığı sənaye, yaxud texnologiyalar parklarının infrastrukturunun, istehsal sahələrinin yaradılması və tikintisi, habelə elmi-tədqiqat və təcrübə-konstruktor işlərinin görülməsi məqsədi ilə sənaye, yaxud texnologiyalar parklarının idarəedici təşkilatı və ya operatoru tərəfindən müvafiq icra hakimiyyəti orqanının təsdiqedici sənədi əsasında siyahısı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq edilən texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı;

20.0.19. müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) yaratdığı sənaye, yaxud texnologiyalar parklarında istehsal sahələrinin tikintisi, elmi-tədqiqat və təcrübə-konstruktor işlərinin görülməsi və istehsal məqsədi ilə sənaye, yaxud texnologiyalar parklarının rezidenti olan hüquqi şəxslər və fərdi sahibkarlar tərəfindən müvafiq icra hakimiyyəti orqanının təsdiqedici sənədi əsasında siyahısı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq edilən texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı — rezidentin sənaye, yaxud texnologiyalar parklarında qeydiyyata alındığı tarixdən 10 il müddətinə;

20.0.20. müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) yaratdığı sənaye parkında müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi fəaliyyətlə məşğul olan sənaye parkının rezidenti tərəfindən müvafiq icra hakimiyyəti orqanının təsdiqedici sənədi əsasında həmin fəaliyyətin məqsədləri üçün bütün növ malların idxalı – 2016-cı il mayın 1-dən 14 il müddətinə;

20.0.21. müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) təsdiqedici sənədi əsasında Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinin, habelə müharibə və hərbi əməliyyatların təsirinə məruz qalmış digər ərazilərin minalardan və partlamamış hərbi sursatdan, tərkibində partlayıcı olan qurğulardan və digər partlayıcı qalıqlardan təmizlənməsi çərçivəsində bütün növ texnikanın, avadanlıqların, texniki vasitələrin və qurğuların, onların ehtiyat hissələrinin, fərdi zirehli qoruyucu geyimlərin, alətlərin, minaaxtaran itlərin, partlayıcı və pirotexniki vasitələrin, onların yaradılması və (və ya) istehsalı üçün texnologiyaların,

avadanlıqların, dəstləşdirici hissələrin və xammalın, habelə minaaxtaran itlərin idxalı – 2023-cü il martın 1-dən 5 il müddətinə;

20.0.22. müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) təsdiqedici sənədi əsasında ƏDV-nin məqsədləri üçün qeydiyyatda olan işğaldan azad edilmiş ərazilərin rezidentləri tərəfindən siyahısı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq olunmuş iqtisadi fəaliyyət sahələri və mal nomenklaturaları üzrə texnikanın, texnoloji avadanlıqların və qurğuların, habelə xammal və materialların idxalı – 2023-cü il yanvarın 1-dən 10 il müddətinə;

20.0.24. neft-qaz ehtiyatlarının kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü, ixrac boru kəmərləri haqqında və bu qəbildən olan digər sazişlərə uyğun olaraq Azərbaycan Respublikasına verilməsi nəzərdə tutulan əsas fondların, daşınar əmlakın və digər aktivlərin müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) və ya hasilatın pay bölgüsü haqqında sazişlərdə Azərbaycan Respublikasını təmsil edən hüquqi şəxslərə hər hansı şəkildə təqdim edilməsi üzrə əməliyyatlar;

20.0.25. Azərbaycan Respublikasının ərazisində qanunla müəyyən edilmiş qaydada qeydiyyatdan keçmiş humanitar təşkilatlar, həmçinin müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) razılığı ilə digər hüquqi və fiziki şəxslər tərəfindən humanitar yardım kimi gətirilən mallar;

20.0.26. müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) aktivlərində yerləşdirilməsi üçün idxal olunan qızıl;

20.0.27. ixrac məqsədli neft-qaz fəaliyyəti ilə əlaqədar avadanlıq və materiallar (müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən ixrac məqsədli neft-qaz fəaliyyəti üzrə Azərbaycan Respublikasına idxal olunan avadanlıq və materialların təsdiq olunmuş siyahısı gömrük orqanlarına təqdim edildiyi təqdirdə);

20.0.28. müdafiə təyinatlı məmulatların (döyüş təyinatlı hərbi texnika, hərbi silah və döyüş sursatlarının, partlayıcı maddə və qurğuların, onların dəstləşdirici hissələrinin) layihələndirilməsi, istehsalı, satışı, təmiri və onlara texniki xidmət göstərilməsi fəaliyyətini həyata keçirən şəxslər tərəfindən bu məqsədlə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) təsdiqedici sənədi əsasında texnologiyaların, avadanlıqların, dəstləşdirici hissələrin, materialların və xammalın idxalı;

20.0.28-1. müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum), Azərbaycan Respublikası Baş Prokurorluğunun verdiyi təsdiqedici sənəd əsasında müdafiə və dövlət təhlükəsizliyi məqsədləri üçün istifadə olunan bütün növ texnika və texniki vasitələrin, onların ehtiyat hissələrinin, xüsusi proqram təminatlarının və silah-sursatın idxalı;

20.0.29. aşağıda göstərilən hallarda və müddətlərdə "Dövlət-özəl tərəfdaşlığı haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq müəyyən edilmiş dövlət tərəfdaşının təsdiqedici sənədi əsasında texnikanın, texnoloji avadanlıqların və qurğuların, habelə xammal və materialların idxalı:

20.0.29.1. dövlət-özəl tərəfdaşlığı layihələri çərçivəsində özəl tərəfdaş və ya layihə şirkəti olan şəxslər tərəfindən – "Dövlət-özəl tərəfdaşlığı haqqında" Azərbaycan

Respublikasının Qanununa uyğun olaraq bağlanılmış dövlət-özəl tərəfdaşlığı müqaviləsi ilə müəyyən olunan müddətə, lakin 30 ildən (tikinti dövrü də daxil olmaqla) çox olmayaraq;

20.0.29.2. dövlət-özəl tərəfdaşlığı müqaviləsində gömrük güzəştlərindən istifadə etmək hüququ nəzərdə tutulan və belə müqavilə üzrə özəl tərəfdaşın və ya layihə şirkətinin tikinti işlərinə cəlb etdiyi podratçısı tərəfindən (idxal edilən mallar həmin layihənin dəyərinə aid edildiyi təqdirdə) – dövlət-özəl tərəfdaşlığı müqaviləsində tikinti işlərinin həyata keçirilməsi üçün nəzərdə tutulan müddətdə;

20.0.30. dövlətin satınalma öhdəliyi ilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilən məbləğdən aşağı olmayan elektrik enerjisi istehsalı layihələri üzrə istehsalçı olan fərdi sahibkarlar və hüquqi şəxslər tərəfindən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) təsdiqedici sənədi əsasında texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı – "Elektrik enerjisi istehsalında bərpa olunan enerji mənbələrindən istifadə haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq bağlanılmış elektrik enerjisinin satınalma müqaviləsi ilə müəyyən olunan müddətə, lakin 30 ildən (tikinti dövrü də daxil olmaqla) çox olmayaraq;

20.0.31. müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) təsdiqedici sənədi əsasında hüquqi şəxslər tərəfindən istehsal məqsədilə avtobusların və yük avtomobillərinin ehtiyat hissələrinin idxalı – avtobuslara münasibətdə 2025-ci il yanvarın 1-dən 8 il müddətinə, yük avtomobillərinə münasibətdə 2026-cı il yanvarın 1-dən 7 il müddətinə;

20.0.32. müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) yaratdığı və Naxçıvan Muxtar Respublikasının ərazisində yerləşən sənaye, yaxud texnologiyalar parklarının rezidenti olan hüquqi şəxslər və fərdi sahibkarlar tərəfindən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) təsdiqedici sənədi əsasında istehsal, elmi-tədqiqat və təcrübə-konstruktor işlərinin görülməsi məqsədilə xammal və materialların idxalı – 2026-cı il yanvarın 1-dən 10 il müddətinə;

20.0.33. investisiya təşviqi sənədini almış Naxçıvan Muxtar Respublikasının rezidenti olan hüquqi şəxslər və fərdi sahibkarlar tərəfindən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) təsdiqedici sənədi əsasında istehsal və xidmətlərin göstərilməsi (işlərin görülməsi) məqsədilə xammal və materialların idxalı - 2026-cı il yanvarın 1-dən 10 il müddətinə;

20.0.34. müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) yaratdığı və Naxçıvan Muxtar Respublikasının ərazisində yerləşən sənaye məhəllələrinin rezidenti olan hüquqi şəxslər və fərdi sahibkarlar tərəfindən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) təsdiqedici sənədi əsasında istehsal məqsədilə texnikanın, texnoloji avadanlıqların və qurğuların, habelə xammal və materialların idxalı - 2026-cı il yanvarın 1-dən 10 il müddətinə.

*Fəsil 5*

## Yekun müddəalar

Maddə 21. **Beynəlxalq müqavilələr**

Azərbaycan Respublikasının beynəlxalq müqavilələrində bu Qanunla müəyyən edilmiş normalardan fərqli normalar olduqda, beynəlxalq müqavilələrdə nəzərdə tutulan normalar tətbiq edilir.

Maddə 22. **Qanunun pozulmasına görə məsuliyyət**

Bu Qanunun tələblərinin pozulması qanunla müəyyən edilmiş qaydada məsuliyyətə səbəb olur.

Maddə 23. **Qanunun qüvvəyə minməsi**

23.1. Bu Qanun dərc edildiyi gündən 90 gün sonra qüvvəyə minir.

23.2. "Gömrük tarifi haqqında" Azərbaycan Respublikasının 1995-ci il 20 iyun tarixli 1064 nömrəli Qanunu (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1995, №22, maddə 352; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, №12, maddə 742; 1999, №4, maddə 225; 2001, №3, maddələr 145, 151, №5, maddələr 296, 299; 2009, №2, maddə 57, №12, maddə 967; 2010, №8, maddə 712; 2011, №4, maddə 256) bu Qanun qüvvəyə mindiyi gündən ləğv edilir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 13 iyun 2013-cü il
№ 687-IVQ

**Azərbaycan Respublikasında ixrac-idxal əməliyyatları üzrə gömrük rüsumlarının dərəcələri haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

Azərbaycan Respublikasının "Gömrük Məcəlləsi"nə və "Gömrük tarifi haqqında" Qanununa uyğun olaraq gömrük tarifləri mexanizminin daha da təkmilləşdirilməsi yolu ilə xarici iqtisadi əlaqələrin səmərəliliyinin artırılması, sahibkarlıq fəaliyyətinin, ölkədə rəqabətədavamlı məhsulların istehsalının inkişafı üçün lazımi şəraitin yaradılması və daxili bazarın qorunması məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti qərara alır:

2 Azərbaycan Respublikasının xarici iqtisadi fəaliyyətinin əmtəə nomenklaturası malların beynəlxalq təcrübədə qəbul olunmuş təsnifat sisteminə uyğun olaraq aparılsın.

4. Müəyyən edilsin ki, "Gömrük tarifi haqqında" Azərbaycan Respublikası Qanununun 19.2-ci maddəsinə uyğun olaraq aşağıdakılar idxal gömrük rüsumuna cəlb olunmur:

4.5-1 fövqəladə halların qarşısının alınması və bu halların nəticələrinin aradan qaldırılması məqsədilə maddi-texniki təchizat sisteminin yaradılması, seysmik-müşahidə məntəqələrinin və qəza-xilasetmə dəstələrinin yerləşdiriləcəyi bazaların təşkili və onların fəaliyyəti üçün Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin təsdiqedici sənədi əsasında idxal olunan xüsusi texniki vasitələr, avadanlıqlar, cihazlar, alətlər, komplektləşdirici məmulatlar, ehtiyat hissələri, ləvazimatlar və materiallar.

4.7. Azərbaycan Respublikası vətəndaşlarının pasportları və şəxsiyyət vəsiqələri blankları, onların fərdiləşdirilməsi, "Giriş-çıxış və qeydiyyat" idarələrarası avtomatlaşdırılmış məlumat- axtarış sisteminin yaradılması və tətbiqi, əl-barmaq izlərinin, güllə və gilizlər üzərindəki izlərinmüəyyən edilməsi üçün gətirilən avadanlıqlar, məmulatlar, ləvazimatlar və materiallar, polisə telefon zənglərinin qəbulu üzrə xüsusi "102" xidmətinə - Zəng Mərkəzi Sisteminə (ZMS) daxil olan avadanlıqlar, məmulatlar, ləvazimatlar və materiallar, dəniz səviyyəsindən 1300 metrdən hündürlükdə yerləşən dağlıq ərazilərdə turizm sahəsində olan investisiya layihələrinin həyata keçirilməsi üçün, ehtiyaclarını yerli xammal və materiallar hesabına ödəmək mümkün olmadıqda, layihə çərçivəsində idxal edilən mallar.

4.8. lizinq müqaviləsinin obyekti olan qanunvericiliklə müəyyənləşdirilmiş təsnifat üzrə əsas vəsaitə aid, idxal gömrük rüsumlarından azad olunan daşınar əşyaların xarici iqtisadi fəaliyyətin əmtəə nomenklaturası üzrə siyahısı təsdiq edilsin (əlavə olunur).

4.15-1. dövlət ehtiyatlarına tədarük edilməsi məqsədilə idxal olunan ərzaqlıq buğda.

4.18. Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polisi İdarəsi tərəfindən alınan qeydiyyat şəhadətnamələri, sürücülük vəsiqələri, qeydiyyat nişanları, xidmətlə bağlı digər blanklar və büdcə vəsaiti hesabına idxal olunan avadanlıqlar.

4.24-1. "Azərbaycan Respublikasının Energetika Nazirliyi yanında Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyinin təsdiqedici sənədləri əsasında, gömrük rüsumlarından azad olunmaqla idxal edilən bərpa olunan enerji və ondan səmərəli istifadə edilməsi sahəsində tətbiq olunan qurğuların, onların istehsalı üçün avadanlıqların hissə və ləvazimatlarının xarici iqtisadi fəaliyyətin mal nomenklaturası (XİFMN) üzrə Siyahısı" təsdiq edilsin (əlavə olunur).

4.35. benefisiar dövlət orqanı (qurumu) və ya benefisiar fondun təsdiqedici sənədinə əsasən, hüquqi və fiziki şəxslər tərəfindən dövlət orqanlarına (qurumlarına), eləcə də siyahısı Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 23 may tarixli 2147 nömrəli Fərmanı ilə təsdiq edilmiş ictimai və sosial məqsədlər üçün yaradılmış fondlara əvəzsiz olaraq verilməsi, habelə dövlət orqanlarına (qurumlarına) və həmin fondlara əvəzsiz olaraq verilən daşınmaz əmlakların və əmlak kompleksi şəklində müəssisələrin yaradılması üçün idxal olunan mallar.

4.36. "Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin təsdiqedici sənədinə əsasən elektrik mühərrikli avtomobillər üçün elektrik enerji doldurucularının istehsalı məqsədilə idxal olunan hissə və ləvazimatların xarici iqtisadi fəaliyyətin mal nomenklaturası (XİFMN) üzrə siyahısı" təsdiq edilsin (əlavə olunur). (Bu bənd 2027-ci il 1 yanvar tarixinədək qüvvədədir.)

4.37. Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin təsdiqedici sənədinə əsasən, əkin məqsədilə ölkəyə gətirilən ağaclar, kollar, kolcuqlar, ot bitkiləri.

4.38. Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin təsdiqedici sənədinə əsasən, sənaye parklarının rezidentləri tərəfindən sənaye istehsalı (yığımı) məqsədilə idxal olunan xarici iqtisadi fəaliyyətin mal nomenklaturunun "8702 40 000 2" alt yarımmövqeyində təsnifləşdirilən oturacaqsız, tutacaqsız və monitoru quraşdırılmamış yalnız elektrik mühərriki ilə işləyən avtobuslar. (Bu bənd 2027-ci il 1 yanvar tarixinədək qüvvədədir.)

11. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1997-ci il 16 iyun tarixli 62 nömrəli qərarı, həmin qərarın 9-cu bəndi istisna olmaqla və 1997-ci il 15 iyul tarixli 79 nömrəli qərarı, Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarına əlavələr və dəyişikliklər edilməsi barədə" 1998-ci il 5 avqust tarixli 167 nömrəli qərarının 1-ci bəndinin 5-ci və 6-cı abzasları və "Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarına əlavələr və dəyişikliklər edilməsi barədə" 1998-ci il 30 oktyabr tarixli 218 nömrəli qərarının 1-ci bəndinin Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1998-ci il 22 aprel tarixli 91 nömrəli qərarına aid olan hissələri qüvvəsini itirmiş hesab edilsin.

12. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Baş naziri A.RASİZADƏ**

Bakı şəhəri, 22 aprel 1998-ci il
№ 91

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2005-ci il 31 yanvar tarixli 12 nömrəli
qərarı ilə
TƏSDİQ EDİLMİŞDİR

**Lizinq müqaviləsinin obyekti olan qanunvericiliklə müəyyənləşdirilmiş təsnifat üzrə əsas vəsaitə aid, idxal gömrük rüsumundan azad olunan daşınar əşyaların xarici iqtisadi fəaliyyətin əmtəə nomenklaturu üzrə**

**S İ Y A H I S I**

| **XİF ƏN-in kodu** | **Mal mövqelərinin adları** |
|---|---|
| 1 | 2 |
| 842481 | -- kənd təsərrüfatı və bağçılıq üçün: |
| 842481 1000 | --- suvarma qurğuları |
| | --- digərləri: |
| 842481 3000 | --- daşınan qurğular |
| | ---- digərləri: |
| 842481 9100 | ----- traktorlara qoşulmaq və ya traktorlara yedəklənmək üçün nəzərdə tutulmuş tozpaylayan və səpələyən qurğular |
| 842481 9900 | ----- digərləri |
| 8428 20 300 0 | --- xüsusi olaraq kənd təsərrüfatında istifadə üçün nəzərdə tutulmuş pnevmatik qaldırıcılar və konveyerlər |
| 8428907100 | ----- kənd təsərrüfatı traktorlarına taxılmaq üçün hazırlanmış yükləyici qurğular |
| 8429 | Buldozerlər, dönməz və dönər kavahınlarla, qreyderlər və planirovşiklər, skreperlər, mexaniki kürəklər, ekskavatorlar, birçalovlu yükləyicilər, toxaclayıcı və yolbasan maşınlar, özügedən: |
| | - buldozerlər, dönməz və dönər kavahınlarla: |
| 8429 1 1 00 | -- tırtıllı: |
| 8429 1 1 001 0 | --- gücü 250 a.g (at gücü)-dən çox |
| 8429 1 1 002 0 | --- gücü 400 a.g. və çox, -50° C və aşağı hava temperaturlarında işləmək üçün nəzərdə tutulan |
| 8429 110090 | --- digərləri |

| | |
|---|---|
| 8429 190000 | -- digərləri |
| 8429 20 00 | - qreyderlər və planirovşiklər: |
| 8429 20 001 0 | - qreyderlər, gücü 350 a.g. və çox |
| 8429 20 009 0 | - digərləri |
| 8429 30 000 0 | - skreperlər |
| 8429 40 900 0 | - toxaclayıcı maşınlar |
| | - mexaniki kürəklər, ekskavatorlar və birçalovlu yükləyicilər: |
| 8429 51 | - frontal birçalovlu yükləyicilər: |
| 842951 1000 | --- yeraltı işlər üçün xüsusi hazırlanmış yükləyicilər |
| | --- digərləri: |
| 8429519100 | --- birçalovlu tırtıllı yükləyicilər |
| 8429 51 990 0 | --- digərləri |
| 8429 52 | -- tamdönər maşınlar: |
| 842952 1000 | --- tırtıllı ekskavatorlar |
| 8429 52 900 0 | --- digərləri |
| 8429 59 000 0 | -- digərləri |
| 8432 | Kənd təsərrüfatı, bağçılıq, meşə təsərrüfatı maşınları, torpağın hazırlanması və işlənməsi üçün; qazon və ya idman meydançaları üçün katoklar: |
| 8432 10 | - kotanlar: |
| 8432 10 100 0 | -- gavahınlı |
| 8432 10 900 0 | -- digərləri |
| | - dırmıqlar, kətmənlər, kultivatorlar, alaqaparan, kərkilər: |
| 8432 21 000 0 | -- diskli dırmıqlar |
| 8432 29 | -- digərləri: |
| 8432291000 | --- kətmənlər və kultivatorlar |
| 8432 29 300 0 | --- dırmıqlar |
| 8432 29 500 0 | --- torpaq frezləri |
| 8432 29 900 0 | --- digərləri |
| 8432 30 | - toxumsəpən, əkən və şitilbasdıran maşınlar: |
| | -- toxumsəpən: |

| | |
|---|---|
| 8432 30 110 0 | --- mərkəzi ötürücüsü olan dəqiq səpin aparan toxumsəpən |
| 8432 30 190 0 | --- digərləri |
| 8432 30 900 0 | -- əkən və şitilbasdıran maşınlar |
| 8432 40 | - üzvi və mineral gübrə səpələyiciləri və paylayıcıları: |
| 8432 40 100 0 | -- mineral və ya kimyəvi gübrələrin paylanması üçün |
| 8432 40 900 0 | -- digərləri |
| 8432 80 000 0 | - digər maşın |
| 8432 90 000 0 | - hissələri |
| 8433 | Kənd təsərrüfatı bitkilərinin yığılması və ya döyülməsi üçün maşın və ya mexanizmlər, presləyici-toplayıcılar, saman və quru otları kiplər formasında qablaşdırmaq üçün preslər daxil olmaqla; otbiçənlər və qazonbiçənlər; 8437 mal mövqeyində göstərilənlərdən başqa, yumurta, meyvə və ya digər kənd təsərrüfatı məhsullarının təmizlənməsi, sortlaşdırılması və ya çıxdaş edilməsi üçün maşınlar: |
| | - qazonlar, parklar və ya idman meydançaları üçün otkəsən maşınlar: |
| 8433 11 | -- motorlu, horizontal səth üzərində fırlanan kəsici hissə ilə: |
| 8433 11 1000 | --- elektriklə işləyən |
| | --- digərləri: |
| | --- özügedən: |
| 8433 11 5100 | ----- oturacaqlı |
| 8433 11 590 0 | ----- digərləri |
| 8433 11 900 0 | ---- digərləri |
| 8433 19 | -- digərləri: |
| | --- mühərrikli: |
| 8433 19 1000 | ---- elektriklə işləyən |
| | ---- digərləri: |
| | ----- özügedən: |
| 8433 19 510 0 | ------ oturacaqlı |
| 8433 19 590 0 | ------ digərləri |
| 8433 19 700 0 | ----- digərləri |
| 8433 19 900 0 | --- mühərriksiz |

| | |
|---|---|
| 8433 20 | - otbiçənlər, traktorlara bərkidilənlər daxil olmaqla, digərləri: |
| 8433 20 100 0 | - mühərriklə |
| | -- digərləri: |
| | --- traktor üçün, asma və ya yedəkli: |
| 8433205100 | ---- horizontal səth üzərində fırlanan kəsici hissə ilə |
| 8433 20 590 0 | ---- digərləri |
| 8433 20 900 0 | --- digərləri |
| 8433 30 | - küləş tədarükü üçün digər maşınlar: |
| 8433301000 | -- otçevirən, yan dırmıqları və samanqarışdıranlar |
| 8433 30 900 0 | -- digərləri |
| 8433 40 | - küləş və samandan kipbağlayan preslər, presləyici-yığıcılar daxil olmaqla: |
| 8433 40 100 0 | -- presləyici-yığıcılar |
| 8433 40 900 0 | -- digərləri |
| | - məhsul yığımı üçün digər maşınlar; taxıldöyən maşın və mexanizmlər: |
| 8433 51 000 0 | -- taxılyığan kombaynlar |
| 8433 52 000 0 | -- digər taxıldöyən maşın və mexanizmlər |
| 8433 53 | -- köklərin və ya meyvəköklülərin yığılması üçün maşınlar: |
| 8433 53 100 0 | --- kartofqazıyan və kartofyığan maşınlar |
| 8433 53 300 0 | --- çuğundurun tağını kəsən maşınlar və çuğunduryığan maşınlar |
| 8433 53 900 0 | --- digərləri |
| 8433 59 | -- digərləri: |
| | --- silosyığan kombaynlar: |
| 8433 59 110 0 | ---- özügedən |
| 8433591900 | ---- digərləri |
| 8433 59 300 0 | --- üzümyığan kombaynlar |
| 8433 59 800 0 | --- digərləri |
| 8433 60 000 0 | - yumurta, meyvə və ya başqa kənd təsərrüfatı məhsullarının təmizlənməsi, çeşidlənməsi və ya kalibrovka edilməsi üçün maşınlar |
| 8433 90 000 0 | - hissələri |
| 8434 | Sağıcı qurğu və aparatları, südün emalı və təkrar emalı üçün |

| | |
|---|---|
| | avadanlıqlar: |
| 8434 10 000 0 | - sağıcı qurğu və aparatları |
| 8434 20 000 0 | - südün emalı və təkrar emalı üçün avadanlıqlar |
| 8434 90 000 0 | - hissələri |
| 8435 | Preslər, xırdalayıcılar və şərabçılıq, sidr, meyvə şirələri və digər içkilərin istehsalı üçün analoji maşınlar: |
| 8435 100000 | - avadanlıqlar |
